# NƏTİCƏLƏRƏ DAİR BÜLLETEN

## COVID-19 pandemiyası zamanı qəbul edilmiş yumşaldıcı tədbirlər

**Sentyabr 2020**

### Masa arxası işə üstünlük verilib, xüsusilə:

- Ermənistan, Belarus, Gürcüstan, Moldova Respublikası və Ukraynaya məhkəmə icraatı və cinayət hüququ sahəsində **hüquqi ekspert yardımı göstərilmişdir**.
- Venesiya Komissiyası tərəfindən **yazılı qaydada** 4 rəy və 1 Amicus curiae **qəbul edilmişdir**.
- Ayrı-seçkiliyə dair **məlumatların toplanması üzrə araşdırmalar** Ermənistan, Moldova Respublikası və Ukraynada aparılmışdır.

### Onlayn təşkil edilmiş fəaliyyətlər, xüsusilə:

- COVID-19 pandemiyası dövründə regionda **Hüquqşünaslar üçün İnsan Hüquqlarının Tədrisi (HELP) üzrə 5 kurs** hazırlanmış və başlanmışdır. 2020-ci il mart ayının ortalarından etibarən istifadəçilərin sayında **22% artım** müşahidə edilmişdir.
- Ermənistan, Belarus, Gürcüstan, Moldova Respublikası və Ukraynada **60 hüquqşünas üçün onlayn mentorluq həyata keçirilmişdir**.
- Mülki ədalət mühakiməsi üzrə **Avropa standartlarına dair onlayn təlimlər** vasitəsilə 187 Belarus tələbənin məlumatlılığı artırılmışdır.
- Ödəniş tapşırıqları üçün yeni elektron platforma və **karantin dövründə Ermənistanın Məcburi İcra Xidmətinin gördüyü tədbirlərə** dair 2 məlumat vərəqəsi hazırlanmışdır.

### COVID-19 vəziyyəti ilə əlaqəli ehtiyaclara uyğunlaşdırılmış fəaliyyətlər

- Gürcüstan vətəndaşlarının Konstitusiya Məhkəməsinə **onlayn şikayət verməsi** üçün işlərin idarə edilməsi sistemi uyğunlaşdırılmış, beləliklə, COVID-19 şəraitində ədalət mühakiməsinə çıxış təmin edilmişdir.
- Azərbaycan və Moldova Respublikasının səlahiyyətli qurumlarının **pandemiya dövründə məhkəmə sisteminin səmərəliliyinin və fəaliyyətinin artırılması** üçün görülən tədbirlər barədə məlumatlılığı daha da artırılmışdır.



Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe



## Şərq Tərəfdaşlığı ölkələrində YİT proqramından əlavə Avropa Şurası tərəfindən həyata keçirilmiş yumşaldıcı tədbirlərə nümunələr

- Ermənistan, Azərbaycan, Gürcüstan və Moldova Respublikasındakı cəzaçəkmə müəssisələrinə **tibbi material və fərdi qoruyucu vasitələr** verilmişdir.
- **Həbsxanada səhiyyə xidmətinin** təşkili və **idarə edilməsi**nə dair təlimat və COVID-19 kontekstində **azadlıqdan məhrum edilmiş şəxslərlə rəftar** barədə broşura Ukrayna dilinə tərcümə edilmişdir.
- Ermənistanın Dövlət Agentliyi Ofisinin **azadlıq və toxunulmazlıq, ədalətli məhkəmə araşdırması, şəxsi həyat hüquqları və onların fövqəladə hallarda məhdudlaşdırılması** barədə məlumatlılığı artırılmışdır.
- Ukrayna və Gürcüstanda **böhran dövründə** daha məsuliyyətli jurnalistika və **reportaj, məlumat çatdırılması** təşviq edilmişdir.
- Ukraynada Roman əhalinin istifadəsinə **sanitariya dəstləri** verilmişdir.
- Gürcüstan və Ukraynada **COVID-19 pandemiyası və sanitariya tədbirləri haqqında məlumat** azlıqların dillərinə tərcümə edilmişdir.
- COVID-19 pandemiyası çərçivəsində **məlumatların qorunması hüququ** və **rəqəmsal əlaqəni izləmə** barədə Avropa Şurasının bəyanatları Ukrayna dilinə tərcümə edilmiş və Ombudsmanın Ofisinə təqdim edilmişdir. COVID-19-un yayılmasının qarşısını almaq üçün Ukraynada başlanmış mobil tətbiqetmənin məlumatı mühafizə etmə standartlarına uyğunluğuna dair tövsiyə verilmişdir.
- COVID-19 böhranı səbəbindən iqtisadi çətinlik yaşayan sosial cəhətdən həssas ailələrə ödənişsiz hüquqi xidmətlər göstərmək üçün Gürcüstan Vəkillər Kollegiyasına **kiçik qrant** verilmişdir.
- Gürcüstanda 96.000 istifadəçidən ibarət onlayn auditoriya ilə **"COVID-19 dövründə insan hüquqları barədə söhbətlər" mövzusunda 3 sessiya,** o cümlədən qadınlara qarşı zorakılığa həsr olunmuş bir sessiya təşkil olunmuşdur.

**Ətraflı məlumat:**
**https://pjp-eu.coe.int/en/web/pgg2/home**

LIVE **YİT "COVID-19-a cavab tədbirləri və Şərq Tərəfdaşlığı regionunda əldə edilmiş dərslər" üzrə canlı panel – 7 oktyabr 2020 10:30-12:00 Mərkəzi Avropa vaxtı**


**Əlaqə:** Ogdp_pgg@coe.int
@partnershipgovernance
@CoeEapPCF



Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe